BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№2 Humanitar elmlər seriyası 2014*

**UOT 745. 5. 5. 036: 39 (4/9)**

# GƏNCƏBASARIN SON TUNC – İLK DƏMİR DÖVRÜNƏ AİD SAXSI MƏMULATLARININ ETNOQRAFİK SƏCİYYƏSİ

**E.L.HƏSƏNOV**
***AMEA Gəncə Bölməsi***
***el-hasanov@mail.ru***

*Elmi məqalədə etnoqrafik və arxeoloji tapıntılar əsasında Gəncə və Gəncəbasarın antik dövr bədii keramikasının tarixi mənbə olaraq əhəmiyyəti üzə çıxarılır. Həmçinin bu dövr dulusçuluğunun mühüm səciyyəvi konstruktiv-quruluş və dekorativ-naxışlanma xüsusiyyətləri tədqiq edilir.*

**Açar sözlər:** Gəncə, tarixi-etnoqrafik tədqiqat, dulusçuluq sənəti, antik dövr mərhələsi, bədii keramika məmulatları

Dahi Şeyx Nizaminin yurdu Gəncə şəhəri ərazisində dulusçuluğun formalaşması olduqca əski tarixi mərhələlərə təsadüf edir. Şəhərin köhnə xarabalıqları və ətraf ərazilərdə XIX əsrdən etibarən ayrı-ayrı şəxslər, XX əsrin ortalarından başlayaraq isə, əsasən mütəxəssislər-arxeoloqlar tərəfindən həyata keçirilmiş müxtəlif qazıntı və tədqiqat işləri sayəsində dulusçuluq sənətinin fərqli nümunələri aşkar edilmişdir.

Əvvəla, Gəncə və onun ətraf bölgələrində ilkin keramika məmulatlarının eradan əvvəl VIII-VII minilliklərə aid olduğu üzə çıxmışdır. Tarixi baxımdan neolit mərhələsinə aid olan bu qədim gil qablar bir sıra cəhətlərinə görə qonşu etnosların oxşar dulusçuluq nümunələrindən fərqlənir. Bu fərqlər özünü istər hazırlanma texnologiyası, istərsə də xarici səthinin naxışlanması sahəsində büruzə verir.

Gəncənin, bütövlükdə isə Gəncəbasarın neolit, həmçinin eneolit dövrlərinə aid edilən saxsı nümunələrinin hazırlanmasında yerli xammal mənbələrindən istifadə edildiyi məlumdur. Bundan əlavə, ən qədim gil qabların bişirilməsi prosesi də burada bəzi səciyyəvi xüsusiyyətləri ilə seçilmişdir.

Torbaların (toxuma torbaların) dulusçuluq məmulatlarının hazırlanması prosesində yardımçı vasitə kimi istifadə edilməsi bu tip cəhətlərdəndir. Belə ki, keramika sənəti ənənələrinin yeni təşəkkül tapdığı bu mərhələdə toxuma torbalarla gil qabların bişirilməsi ilkin üsullardan hesab edilir. Bu proses gil tərkibli qabların ətrafına toxuma torbaların qoyulması və nəticədə bişirilmədən

sonra hazır məmulatların üzərində yalnız torbanın izlərinin qalması ilə səciyyələnir. Məhz bu texnoloji prinsip əsasında hazırlanması əsas götürülərək qeyd olunan gil qablar elmi ədəbiyyatda “toxuma keramika” adı ilə tanınır. “Toxuma” keramika ənənələri yalnız Gəncə və onun ətraf ərazilərində deyil, Azərbaycanın və ümumiyyətlə, dünyanın ən qədim sənətkarlıq, mədəniyyət mərkəzlərində formalaşmış və özünün mövcudluğunu müəyyən bir tarixi müddət ərzində qoruyub saxlamışdır. Eradan əvvəl VI-IV minilliklərdə Gəncədə, bütövlükdə Gəncə-Qazax bölgəsinin ayrı-ayrı tarixi-arxeoloji abidələrində, həqiqətən də, sənətkarlıq baxımından keyfiyyətli, eyni zamanda diqqətəlayiq keramika nümunələrinə təsadüf edilmişdir. Xronoji baxımdan eneolit və ilk (erkən) tunc dövrünə aid edilən bu dulusçuluq məmulatları bir sıra səciyyəvi cəhətləri ilə seçilmişdir [1, 3].

Dəmir dövründə bədii keramika nümunələrinin naxışlanmasında xüsusi ağ boyaq maddəsi ilə cızma ornamentlərin minalanması geniş vüsət almış, saxsı qabların səthi üzərində relyef təsvirləri-qabarıq naxışların tətbiqi özünəməxsus ustalıqla yerinə yetirilmişdir. Bu tarixi mərhələdə Gəncə dulusçuluğu özünün inkişafında elə bir yüksək səviyyəyə çatmışdır ki, həyata keçirilmiş müxtəlif qazıntı işləri, aparılmış texniki, bio-kimyəvi tədqiqatlar sübuta yetirmişdir ki, bu qədim şəhərin keramika ənənələri uzun müddət ərzində qonşu bölgələrin sənətkarları üçün sirr olaraq qalmışdır. Nəticədə isə ictimai-sosial və mədəni həyatın müxtəlif sahələrində kifayət qədər inkişafı ilə seçilmiş dəmir dövründə Gəncə ən təkmil dulusçuluq məmulatlarının hazırlandığı sənətkarlıq mərkəzlərindən biri olmuşdur.

Müxtəlif monoxrom və polixrom saxsı nümunələrinin digər qonşu bölgələrdə hazırlanmasını maddi tapıntılar sübuta yetirsə də, ilk dəmir dövründə ağ inkrustasiyalı keramikanın əsas ocağı Gəncə və Gəncə ətrafı ərazilər hesab olunur. Cızma naxışları ağ boyaq maddəsi ilə doldurulmuş dulusçuluq nümunələri mənasını ifadə edən ağ inkrustasiyalı keramikanın ən yüksək inkişaf dövrü məhz bu tarixi mərhələdir [4, 6]. Ümumiyyətlə, dəmir dövrü və eramızın ilk əsrlərinə qədərki antik mərhələdə Gəncə dulusçuluğunun nümunələri özünün bədii tərtibatı, konstruktiv-plastik formalarının müxtəlifliyi, dekorativ-ornament xüsusiyyətlərinin çoxçeşidliliyi və nəfisliyi ilə seçilən qablarla təmsil olunmuşdur. Bu tarixi dövrə aid keramik qabların səciyyəvi xüsusiyyəti bədii keyfiyyətliliyin saxsı məmulatlarında geniş surətdə tətbiq edilməsidir. Gəncə dulusçuluğunun bəhs olunan antik mərhələyə, o cümlədən ellinizm dövrünə aid nümunələrinin konstruktiv baxımdan formaları fərqli çeşidləri ilə seçilir:

1. Bədii vazalar. Dövrün mühüm bədii keramika məmulatları sırasında bədii vazaların xüsusi yeri vardır. Bu saxsı qabların dekorativ xüsusiyyətləri, təsərrüfat fəaliyyəti ilə yanaşı, ayrı-ayrı dini ayin və mərasimlərin icrası zamanı istifadə edilməsi, rəng və forma cəhətləri onların mühüm xüsusiyyətləri hesab olunur.

2. Fiqurlu keramika**.** Bu tip bədii dulusçuluq nümunələri müxtəlif canlıların, ev və vəhşi heyvanların formasında hazırlanması ilə seçilir. Fiqurlu

keramik məmulatların bir qismi bütövlükdə heyvan, quş və insan bədənini tam göstərmək şərtilə hazırlanmış, digər bir qisminin isə yalnız ayrı-ayrı hissələri (qulp, gövdə, boğazcıq hissələri) canlıların təsviri ilə tamamlanır [7, 9].

3. Əlaqəli qablar. Elmi ədəbiyyatda iki və ya daha çox bədii dulusçuluq qabının ümumi konstruksiya əsasında birləşdirilmiş formada hazırlanması ilə səciyyələnən keramika nümunələri məhz bu cür adlandırılır. Bu qabların mühüm səciyyəvi xüsusiyyətləri onların açıq çəhrayı rəngə malik olması, bir sıra hallarda tünd qırmızı, qəhvəyi, boz və qara rəngli olması, həmçinin xarici səth hissəsinin fərqli və rəngarəng ornament motivləri ilə bəzədilməsi, daxili (yaxud içəri) hissəsində bəzi ştrix yaxud cızma elementlərindən istifadə edilməsi hesab olunur.

Bundan əlavə, Gəncə və onun ətrafındakı bu dövrə aid abidələrdən aşkar olunmuş bədii dulusçuluq məmulatlarının boyalı, boyanaxışlı nümunələri də diqqətəlayiq saxsı qablarıdır. Eyni zamanda, bəhs edilən keramik qabların vacib xüsusiyyətləri sırasında onların dekorativ-naxış elementləri qeyd olunmalıdır. Mühüm ornamentlər kimi bədii təsvirli cızma naxışlar, həmçinin müxtəlif motivləri ilə seçilən qabarıq (relyefli) təsvirlər xüsusi vurğulanmalıdır. Qrafik üsullu ornamentlər isə bəhs olunan antik mərhələnin, o cümlədən də ellinizm dövrünün bədii saxsı məmulatlarının səciyyəvi naxışları olaraq qiymətləndirilir.

Bəhs edilən dövrdə Gəncə və Gəncəbasarla yanaşı, ölkəmizin müxtəlif bölgələrinin tarixi-arxeoloji abidələrindən aşkar edilmiş nümunələr əsasında sübuta yetirilmişdir ki, fərqli naxışlara, forma və işlənmə üslubuna malik bir sıra yeni dulusçuluq qabları meydana gəlmişdir:

1) qədim yunan asklarına bənzəyən və eyni məqsəd üçün (maye saxlanılması üçün) istifadə olunan matralar;
2) oynoxoyalar (iri həcmli olmaları ilə seçilən şərab piyalələri);
3) kanfar tipli saxsı qablar;
4) təkağızlı vazalar;
5) lüləyli qablar;
6) üçağızlı vazalar.

Bəhs edilən tarixi mərhələdə səciyyəvi keramik məmulatlar monoxrom olması, zoomorf elementlərin naxışların tərkibində deyil, saxsı nümunələrinin formalarında əks etdirilməsi ilə fərqlənir. Belə ki, dövrün əsas antropomorf və zoomorf saxsı məmulatı, əsasən insan və heyvan formasına malik heykəlciklərdən, həmçinin bu formada hazırlanmış qablardan ibarətdir [3, 6].

Antik dövr mərhələsində əcdadlarımız tərəfindən yaradılmış Qafqaz Albaniyası dövlətində ictimai-sosial inkişafın əldə olunmasında Gəncə şəhəri və bütövlükdə, Gəncəbasar bölgəsinin əhəmiyyətli rolu kifayət qədər böyük olmuşdur. Zəngin təbii sərvətlərə, əlverişli təbii-cografi ve strateji mövqeyə, səfalı iqlim göstəricilərinə malik olan Gəncə və onun ətraf ərazilərində sənətkarlıq sahələrinin çoxəsrli ənənələrə istinad etməsi bu tərəqqi prosesinin yüksəlişinə təkan verən amillərdən hesab olunur. Gəncənin qədim ərazilərin-

dən, Gəncəçay hövzəsi, Mingəçevir, Goranboy, Göygöl və Samux rayonları ərazisindən aşkar edilmiş çoxsaylı dulusçuluq nümunələri bir sıra mühüm sənətkarlıq xüsusiyyətləri nöqteyi-nəzərindən ellinizm adlanan mərhələnin qarşılıqlı etno-mədəni əlaqələrini subuta yetirir [3, 5].

Ümumiyyətlə, qədim Gəncə dulusçuluğunun bəhs edilən antik mərhələyə aid nümunələrini əvvəlki tarixi dövrlərə dair saxsı məmulatlarından fərqləndirən bir neçə vacib xüsusiyyəti mövcuddur. Qeyd etmək lazımdır ki, bu tip gil qabların əhəmiyyəti həm də ellinizm mərhələsinə aid edilən saxsı nümunələrinin hazırlanması proseslərini şərtləndirmiş səciyyəvi sənətkarlıq ənənələrinin mənşəyi probleminin şərhinə şərait yaratması ilə bağlıdır [7, 11].

Qədim tarixi və zəngin sənətkarlıq xüsusiyyətləri ilə seçilən Gəncə dulusculuq sənətinin ellinizm mərhələsinə aid bədii saxsı məmulati, ilk növbədə çoxçeşidliliyi, fərqli forma elementlərinə malik olması ilə diqqəti cəlb edir. Bundan əlavə, özünün istifadə istiqamətinə, təyinatına görə də qeyd olunan gil qabların növ müxtəlifliyi özünü büruzə verir.

İlk növbədə, Gəncənin və bütövlükdə Azərbaycanın (Qafqaz Albaniyasının) ellinizm mərhələsinə aid saxsı məmulatları içərisində say etibarilə təsərrüfatda və məişətdə istifadə edilmiş qablar üstünlük təşkil edir. Bu tip dulusçuluq nümunələri içərisində şərti olaraq antropomorf və zoomorf saxsı məmulatı təsnif edilə bilər.

Bəhs edilən saxsı qabların 2 mühüm qrupu mövcuddur:

1) Zoomorf və antropomorf heykəlciklər; 2) Antropomorf, zoomorf formalı və yaxud elementli qablar.

Antropomorf istilahı insan təsvirləri ilə qeyd olunmuş elementlərə şamil olunur. Zoomorf anlayışı isə heyvan və quş formasına malik təsvirlər mənasını ifadə edir. Hər iki təsvir elementlərinə malik olan saxsı qablar əhalinin dini dünyagörüşlərini, inanclarını və mənəvi həyatını işıqlandırmağa müəyyən qədər şərait yaradır. İnsanların təsərrüfat fəaliyyətində heyvandarlıq sahəsinin tutduğu mövqe ilə əlaqədar olaraq yaranmış olan zoomorf saxsı məmulatı ilə yanaşı, antropomorf səciyyəli dulusçuluq nümunələri özünün say çoxluğu və növ müxtəlifliyi ilə seçilir.

Antropomorf saxsı qablar arasında ana təbiətin məhsuldar qüvvəsi, nəslin, məhsulun yaradıcısı rəmzini ifadə edən qadın heykəlciklər xüsusi əhəmiyyətə malikdir. Bu tip dulusçuluq nümunələrində heykəlciyin qol və ayaq hissələrinin ümumi gövdə (bədən təsviri) ilə müqayisədə nazik hazırlanması, əksər nümunələrdə qol, baş və ayaqların fərqli şəkildə qırılması onların qurbanvermə məqsədilə hazırlanmadığını təsbit edir [9,10].

Digər mühüm ellinizm dövrü bədii saxsı məmulatı qrupunu (şərti təsnifata uyğun olaraq - **E.H.**) boyalı dulusçuluq nümunələri təşkil edir. Ellinizm dövrünə aid boyalı saxsı məmulatının bir qismi xarici səth hissəsi tamamilə boya ilə örtülmüş qablardan ibarətdir. Digər eyni tip dulusçuluq qabları isə boya ilə naxışlanmış (yaxud boyanaxışlı - **E.H.**) nümunələrlə təmsil olunmuşdur [11, 13].

Qeyd etmək lazımdır ki, boyalı saxsı qabların naxışları (ornamentləri) məzmunu və işlənilmə texnikası, sənətkarlıq elementlərinin təsviri baxımından 2 tiplə diqqətəlayiqdir:

1) Sadə ornamentlər.

2) Mürəkkəb səciyyəli təsvirlər (naxışlar).

Gəncə və Gəncəbasarın ellinizm tarixi mərhələsinə aid əksər dulusçuluq nümunələri monoxrom səciyyəli olması ilə seçilir. Eyni zamanda, bəhs edilən antik dövrdə keramika sənətinin hərtərəfli inkişafını sübuta yetirən dəlillər içərisində inşaat sahəsində də gil məmulatların geniş surətdə istifadə olunması xüsusi əhəmiyyəti ilə fərqlənir. Ellinizm mərhələsində inşaat keramikası özünün yüksək tərəqqi dövrünə qədəm qoymuşdu.

Ümumiyyətlə, bu dövr ərzində Azərbaycanda (Qafqaz Albaniyasında) inşaat sahəsində şəhərlərdə kirəmitdən istifadə geniş miqyas almışdır. Bunu sübuta yetirən vacib tarixi materiallar kimi ölkəmizin ayrı-ayrı ərazilərindən aşkar edilmiş yastı solenlər göstərilə bilər. Bundan əlavə, müxtəlif novşəkilli kalipterlərə də təsadüf edilməsi bəhs olunan ellinizm mərhələsində inşaat keramikası sahəsində əhəmiyyətli inkişafın mövcud olduğunu təsbit edir. Binaların dam hissəsinin örtülməsində çox maraqlı bir sənətkarlıq üsulundan istifadə edildiyi üzə çıxmışdır. Belə ki, bir çox yaşayış evləri və bütövlükdə tikililərin üst hissəsinin, daha doğrusu, damının örtülməsi prosesində istər yastı, istərsə də novşəkilli kirəmitlərdən birlikdə istifadə olunmuşdur.

Dövrün səciyyəvi və eyni zamanda, geniş istifadə edilən əsas inşaat keramikası məmulatları iki qrupda təmsil olunmuşdur:

I. Yastı formaya malik solenlər.

Bu mühüm inşaat keramikası nümunələrinin quruluşunda bir sıra səciyyəvi cəhətlər özünü büruzə verir. Solenlerin uzununa yanları yuxarı qatlanaraq uc hissəyə doğru bir istiqamətdə daralır.

II. Digər səciyyəvi keramit qrupunu isə novşəkilli kalipterlər təşkil edir.

Kalipterlərdə də solenlərdə olduğu kimi bir istiqamətdə daralma müşahidə olunur. Lakin hər iki tip kirəmitlər üçün onların üzərinin qırmızı boya ilə rənglənməsi cəhəti xarakterikdir [11, 14].

Bütövlükdə, kirəmitlərin kütləvi şəkildə aşkar edilməsi antik dövrdə, o cümlədən ellinizm mərhələsində dulusçuluq sənətinin ayrı-ayrı sahələri, həm-çinin inşaat keramikası sahəsi üzrə ixtisaslaşmanın getdiyini, inkişafın sürətlə davam etdiyini göstərir.

Son tunc və ilk dəmir dövründə ağ inkrustasiyalı, ellinizm mərhələsində isə matralar, oynoxoyalar, piyalələr, kanfar tipli nəfis və diqqətəlayiq dulus-çuluq məmulatlarının meydana gəlməsi bu dövrdə yeni sənətkarlıq cəhətlərinin yerli ənənələrlə uğurlu şəkildə vəhdət təşkil edə bildiyini sübuta yetirir.

**ƏDƏBİYYAT**

1. Кулиева Н.М., Гасанов Э.Л. О развитии художественной керамики в древней Гяндже / Материалы международной научно-практической конференции - Вопросы

общественных наук: социология, политология, философия, история. Новосибирск: Априори, 2011, с. 131-135.
2. Həsənov E.L. Azərbaycan ziyarətgahları: Gəncə İmamzadə türbəsi (tarixi-etnoqrafik tədqiqat). Bakı: Elm və təhsil, 2012, 268 s.
3. Quliyeva N.M., Həsənov E.L. Gəncənin qədim və antik dövr saxsı məmulatlarının öyrənilməsində biokimyəvi innovasiya texnologiyalarının tətbiqinə dair / Biokimyəvi nəzəriyyələrin aktual problemləri mövzusunda II Beynəlxalq elmi konfransın materialları. Gəncə: GDU nəşriyyatı, 2011, I hissə, s. 210-213.
4. Махмудов Ф.Р., Нариманов И.Г. Раскопки холма Аликемек тепеси // Археологиические и этнографические изыскания в Азербайджане в 1973 г. Баку : Элм, 1974, с. 12-13.
5. Кулиева Н.М., Гасанов Э.Л. Об историко-этнографическом исследовании художественной керамики Гянджи эллинистического периода // Журн. Молодой ученый, 2011, № 4, т. II , с. 29-31.
6. Паври Д. Зороастрийская доктрина загробной жизни. М.: Амприта-Русь, 2004, 140 с.
7. Нариманов И.Г. Культура древнего земледельческо-скотоводческого населения Азербайджана. Автореферат докт. дисс. Тбилиси, 1982, 35 с.
8. Иессен А.А. Из исторического прошлого Мильско-Карабахской степи. МИА СССР, №125, М.-Л., 1965, с. 26-27.
9. Гуммель Я.И. Памятники древности в окрестностях Килликдага // Изв. Аз. ФАН СССР, 1941, № 2, с. 34.
10. Казиев С.М. Памятники Мингечаура, как источник изучения Азербайджана // Изв. АН Азерб. ССР, 1950, № 7.
11. Azərbaycan etnoqrafiyası: 3 cilddə, I c., Bakı: Şərq- Qərb, 2007, 544 s.
12. Гуммель Я.И. Крашеная керамики в долине Гянджачая // Известия Аз.Фан. Баку, 1939, № 5, с.37-41.
13. Həsənov E.L. Dulusçuluq sənətinin inkişafina dair / Gəncə tarixinin aktual problemləri. II elmi-praktiki konfransın materialları. Gəncə: Elm, 2010, s. 25-30.
14. Eminli C.T. Azərbaycanın ellinizm dövrü boyalı saxsı məmulatı // AMEA-nın xəbərləri (Tarix, fəlsəfə və hüquq seriyası). Bakı, 2008, № 9, s. 49-59.

## ЭТНОГРАФИЧЕСКАЯ ХАРАКТЕРИСТИКА КЕРАМИЧЕСКИХ ИЗДЕЛИЙ ГЯНДЖАБАСАРА ЭПОХ ПОЗДНЕЙ БРОНЗЫ - РАННЕГО ЖЕЛЕЗА

**Э.Л.ГАСАНОВ**

### РЕЗЮМЕ

В предлагаемой научной статье на основе этнографических и археологических материалов раскрывается значение художественной керамики Гянджи и Гянджабасарского региона античного периода, как источника.

Более того, были исследованы основные характерные конструктивно-пластические формы и декоративно-орнаментальные особенности керамических изделий данной эпохи.

**Ключевые слова:** Гянджа, этнографическое исследование**,** гончарное ремесло, эпоха античного периода, художественные керамические изделия

**ETHNOGRAPHICAL DESCRIPTION OF POTTERY WARES OF GANJABASAR OF THE LATE BRONZE - EARLY IRON AGES**

**E.L.HASANOV**

**SUMMARY**

The article exposes the significance of the artistic ceramics of Ganja and Ganjabasar regions for Classical period as a source based on ethnographical and archaelogical materials.

Moreover, the main typical constructive-plastic forms and decorative-ornamental characteristics of ceramic wares of this epoch were investigated.

**Key words:** Ganja, ethnographical research, ceramics trade, epoch of antique period, artistic ceramic wares